**Xəyalə Adil qızı Quliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# FASİLƏLİ OXU ÜSULU TƏLİM METODLARINDAN BİRİ KİMİ

***Açar sözlər:*** *Oxu, fasilələrlə oxu, dərslik, kurikulum*
***Key words:*** *reading pause reading, manual, curriculum*
***Ключевые слова:*** *чтение, чтение паузой, пособие, курикулум*

Ölkəmizdə həyata keçirilən kurikilum islahatı nəticəsində təhsil sahəsinə yeni baxış və maraqların meydana gəlməsinə şərait yaratdı. Bu gün ümumtəhsil orta məktəblərində dərslərdə eləcə də ədəbiyyat dərslərində yeni təlim üsullarından istifadə edilir. Bu üsullar istər əsərin məzmununun öyrəndilməsinə, istərsə də təhlil aparmağa xidmət edir. Ədəbiyyat dərslərində istifadə edilən təlim üsulları iki qismə ayrılır:

1. Bədii əsərlərin məzmununun öyrədilməsinə xidmət edən iş üsulları: fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, ikihissəli gündəlik, söz assosiyası, İNSERT (interaktiv qeydetmə sistemi) üsullardan istifadə olunur.

2. Bədii əsərin təhlili zamanı istifadə olunan iş üsulları: Beyin həmləsi müzakirə problemin həlli BİBÖ debat rollu oyun (rollu dioloq) Venn dioqramı konseptual cədvəl, şaxələndirmə, karusel, qərarlar ağacı, təqdimat, layihələr üzrə iş aiddir. [1, s.130]

Burada biz fasiləli oxu üsulunun mahiyyəti və tətbiqi yollarından bəhs etdiyimizə görə məzmun üzərində işə xüsusi diqqət yetirəcəyik. Çünki fasiləli oxu üsulu əsərin məzmununun mənimsənilməsi zamanı tətbiq edilən üsullardan biridir.

Bəs fasiləli oxu üsulunun mahiyyəti nədir? Bu üsul bu gün metodik ədəbiyyatda nə səviyyədə işıqlandırılıb? Fasiləli oxu üsulunu daha dəqiq təsvir etmək üçün onu müəyyən mərhələlərə bölməyi daha məqsədəuyğun hesab edirəm. Bu mərhələlər aşağıdakılardır:

Birinci mərhələdə yəni bədii əsərlə tanışlıqdan əvvəlki mərhələ hazırlıq xarakteri daşıyan mərhələdir. Bu mərhələdə müəllim mətni müəyyən bitkin hissələrə ayırır və həmin bitkin hissələrin məzmununa uyğun suallar tərtib edir. Müəllim sualları tərtib edərkən sualların əsərin məzmununa uyğun qurulmasına xüsusi diqqət yetirməlidir. Eyni zamanda suallar şagirdlərin yaradıcılıq qabiliyyətinin formalaşmasına şərait yaratmalıdır.

İkinci mərhələdə yəni bədii əsərin oxusu prosesində müəllim əsərin müəyyən bir bitkin hissəsini özü və yaxud şagirdlərə oxutdurur. Sonra hər bir bitkin hissəyə dair şagirdlərə suallar verir. Bu mərhələdə müəllimdən böyük pedaqoji ustalıq tələb olur. Bu mərhələ oxu prosesinin elə təşkil olunmuş mərhələsidir ki, müəyyən bir bitkin hissə oxunduqdan sonra fasilə edilir və həmin hissəyə aid şagirdlərə suallar verilir. Suallar təxminən aşağıdakı tipdə olur.

1. Oxuduğunuz parçadan nə öyrəndiniz?
2. Gedişat sizin düşündüyünüz kimidirmi?
3. Sizcə qəhrəmanın başına hansı hadisələr gələcək?
4. Oxuduğunuz hissə sizə hansı əsəri xatırlatdı?

Müəllim verilən sualların şagirdlər tərəfindən tapılması üçün şagirdlərə müəyyən vaxt verməlidir. Daha sonra tapılmış cavablar bir-bir dinlənilməlidir. Müəllim bu zaman qarşıdurmaya şərait yaratmamalı, çalışmalıdır ki, fərqli fikirlər yaranan zaman şagirdlər fərqli fikirlərə dözümlü münasibət göstərsinlər və bir-birlərinin cavablarına hörmətlə yanaşsınlar, eyni zamanda müəllim çalışmalıdır ki, imkan daxilində çox cavab dinləsin və cavablara subyektiv münasibət bildirməsin.

Sonuncu hissənin oxusu prosesi başa çatdıqdan sonra müəllim təxminən aşağıdakı tipli suallardan istifadə edə bilər:

1. Qəhrəmanın belə hərəkət edəcəyini düşünürdünüzmü?
2. Siz olsaydınız əsəri necə sonlandırardınız?
3. Qəhrəmanın hərəkətlərini necə qiymətləndirirsiniz?
4. Siz əsəri necə davam etdirərsiniz?
5. Sizcə, qəhrəmanı nə gözləyir? və s.

Fasiləli oxu ilə keçirilən dərslərə 7-ci sinif ədəbiyyatından "Xəzinəqaya" əfsanəsinin məzmunu üzərində iş dərs nümunəsin göstərək.

**Mövzu: "Xəzinəqaya " əfsanəsinin məzmunu üzrə iş**
**Standart:**

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota) müəyyənləşdirir.

1.1.4. Bədii nümunələrin (dastan, hekayə, mənzum hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını və başlıca problemini şərh edir, əsaslandırılmış münasibət bildirir.

1.2.2. Digər obrazlarla müqayisə etməklə və yazıçının münasibətinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, lilota) rolunu aydınlaşdırır.

**Məqsəd:**

1) Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırır.
2) Əfsanədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
3) Əfsanənin janr xüsusiyyətlərini müəyyənləşdirir.
4) Əfsanədə seşdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam danışır.
5) Əfsanənin mövzusunu, ideyasını, onda diqqətə çatdırılan başlıca problemi şərh edir, münasibət bildirir.
6) Əsərin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. [3, s.21 ]

**İş forması:** fərdi, kiçik qruplarla iş.

**İş üsulu:** beyin həmləsi, müzakirə, fasiləli oxu, Venn diaqramı.

**İnteqrasiya:** Az.d. 1.2.4. 2.2.3. 3.1.1. 3.1.2. X. d. 3.1.4. 4.1.2.

**Resurslar:** dərslik, iş vərəqləri

Dərsin gedişi:

Sinifin təşkili və ev tapşırıqlarının yoxlanılması. İlk olaraq şagirdlərin davamiyyəti yoxlanılır. Sonra müsahibə, müzakirə yolları ilə şagirdlərin ev tapşırıqlarını nə dərəcədə yerinə yetirdikləri müəyyənləşdirilir.

Motivasiya. Problemin qoyuluşu. Bu mərhələdə şagirdlərdə dərsə maraq oyatmaq üçün

Daha sonra "Xəzinəqaya" əfsanəsinin fasiləli oxusunu həyata keçirirəm.

Şagirdlərə elan edirəm ki, birinci fasilə "Mənə dua et, uğur dilə ki, səfərdən əlidolu qayıdım, səni bağışlayım". Birinci hissənin fasiləli oxusu başa çatdıqdan sonra şagirdlərə aşağıdakı sualları verirəm və şagirdlərin cavablarını dinləyirəm:

M: Şah necə biri idi?

Ş: Şah xalqına zülümkarlıq edən, müharibələr törədib, günahsız insanların qanını tökən, xəzinələr talayan biri idi

M: Şah hansı tapşırığı vermişdir?

Ş: Şah öz adamlarına bütün kəndlərdəki cavanları səfərbərliyə almağı əmr etmişdi.

Suallara şagirdlərin cavablarını dinləyəndən sonra ikinci hissənin oxusunu həyata keçirirəm. Sinifə elan edirəm ki, ikinci fasiləni "Qarı nə əzab əziyyətdən, nə də ölümdən qorxdu cümləsindən sonra edəcəyik. Oxunmuş hissəyə dair şagirdlərə aşağıdakı sualları verirəm:

M: Qarı şaha nəvəsini geri qaytarmağı istəyəndə şah ona nə cavab verdi?

Ş: Şah qarıya dedi ki, nəvən fərasətli olsa döyüşlərdən var dövlət yığar və özünə gözəl toy edər.

M: Qarının hansı sözləri şahı özündən çıxardı?

Ş: Qarı şaha dedi ki, axıtdığın qanlar sənə fəlakət gətirəcək

Cavabları dinlədikdən sonra növbəti hissənin oxusuna başlayıram. Oxu prosesinə başlamazdan əvvəl əfsanənin necə qurtara biləcəyi barədə şagirdlərin fərziyyələrini alıram.

M: Sizcə əsərin sonluğu necə qurtaracaq?

Ş: Əsərin sonunda şah qarını edam edəcək.

Ş: Şahın qarıya verdiyi cəzaya qarı tab gətirməyərək öləcək və bu özbaşnalığı görən xalq üsyan edərək onu taxtdan endirəcək.

Fərziyyələri dinlədikdən sonra sonuncu hissənin oxusunu həyata keçirirəm.

Şagirdlərə əsərin son hissəsi ilə bağlı aşağıdakı sualları verirəm:

M: Şah xalq verdiyi hansı vədləri hakimiyyətə keçəndən sonra yerinə yetirmədi?

Ş: Şah bütün camaatın qarşısında söz vermişdi ki, ağsaqqalların məsləhətinə daima qulaq asacaq.

M: Şah sonda hansı hadisə ilə qarşılaşdı?

Ş: Şah qoşuna bütün var dövləti götürməyi tapşırdı. Bu zaman qəribə bir hadisə baş verdi bütün ləl-cavahirat daşa döndü.

Suallara şagirdlər tərəfindən verilən cavablar dinlənildikdən sonra, şagirdlərə təlim nəticələrinə uyğun standartların reallaşması üçün müvafiq qrup tapşırıqlar verirəm.

Tədqiqatın aparılması. Bu mərhələdə şagirdləri 4 qrupa bölürəm. Hazırladığım qrup tapşırıqlarını paylayıram və tədqiqatın aparılması üçün 10 dəqiqə vaxtı elan edirəm.

**Laçın qayası qrupu.** Oxuduğunuz əfsanədə mənası sizə aydın olmayan sözləri lüğətlərin köməyi ilə aydınlaşdırın.

**Qırxbulaq qrupu.** Əfsanədə işlədilmiş bədii təsvir və ifadə (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, lilota) vasitələrini cədvəl tərtib edərək müəyənləşdirin.

**Xarıbülbül qrupu.** Əfsanənin mövzu və ideyasını, diqqətə çatdırılan problemləri şərh edin.

**Dədə Günəş qrupu.** Əfsanədəki qarı və şah obrazının oxşar və fərqli xüsusiyyətlərini Venn diaqramından istifadə edərək müəyyənləşdirin.

Məlumat mübadiləsi. Bu mərhələdə qrupların öz tədqiqatlarını təqdim etmələrini təmin edirəm. Şagirdlərin fəallığı ilə təqdimatları dinləyirəm. Təqdimatlarla bağlı şagirdlərə qaranlıq qalan məqam olarsa, sözçü bu məqamları aydınlaşdırır.

Məlumatın müzakirəsi və təşkili. Qrupların təqdim etdikləri təqdimatları sinifin fəallığı ilə müzakirə edirik.

Nəticə və ümumiləşdirmə. Bu mərhələdə şagirdlər tədqiqat sualı ilə bağlı dedikləri fərziyyələrin nəticə ilə müqayisəsini həyata keçirirlər. Bu zaman şagirdlərin fəallığına diqqət yetirirəm.

Yaradıcı tətbiqetmə. Bu mərhələdə şagirdlərə qruplar şəklində "Ədalətli hökmdar" mövzusunda esse yazmağı tapşırıram.

Qiymətləndirmə və ev tapşırığının verilməsi. Şagirdləri aşağıdakı cədvəldə əksini tapan meyarlar əsasında qiymətləndirirəm.

Ev tapşırığı. Əsatirin məzmununa uyğun atalar sözləri yazın.

### Ədəbiyyat:

1. Həsənli B. Ədəbiyyatı tədrisi metodikası. Bakı, "Müəllim" nəşriyyatı, 2016, 449 s.
2. Yusifov F. Ədəniyyatın tədrisi metodikası. Bakı., ADPU nəşri, 2010, 236
3. Əliyev S., Həsənli B., Məmmədov S., Mustafayeva A. Ədəbiyyat. 7-ci sinif üçün dərslik. Bakı, 2018, 212s.
4. Əliyev S., Həsənli B., Məmmədov S., Mustafayeva A. Ədəbiyyat. 7-ci sinif. Müəllimlər üçün metodik vəsait. Bakı, 2018, 211s.

### One of the methods of learning the method of intermittent reading

**Summary**

The article talks about how to use the pause reading, as well as highlights possible errors and omissions when using this method. It is indicated that when using pause reading, pedagogical skills are required from the teacher, while the pupil also requires attentiveness and creative attitude. The article reflects the importance of the teacher's skills in dividing fiction into completed parts, composing questions on the content of the text, as well as using group tasks for understanding students' perception of pause reading in fiction.

Naturally, there are different andspecific questions and plot line for eacheach work. When using the interrupted reading method, the teacher should make a question, taking into account the plot line of the work being taught. The questions should be thought-provoking and rewarding. Artistic work should be properly divided into sections. All of these should be taken into account in the teaching of stories.

### Метод прерывистого чтения как один из методов обучения

**Резюме**

При использовании чтения паузой от учителя требуется педагогические навыки, от ученика же - внимательность и творческое отношение. В статье отражаются важность навыков учителя для разделения художественной литературы на завершенные части, составление вопросов по содержанию текста, а также использование групповых заданий для понимания уровня восприятия чтения паузой художественной литературы учениками. Здесь в центре внимания оказываются заинтересованность учеников в речи педагога в момент чтения паузой, выявления скорости чтения в зависимости от

восприятия ученика, использование групповых заданий и т.д. Естественно, что существуют разные и специфические вопросы и сюжетная линия для каждой учебной работы. При использовании метода прерывистого чтения учитель должен задать вопрос с учетом сюжетной линии обучаемой работы. Вопросы следует продумать. Художественное произведение должно быть надлежащим образом разделено на разделы. Все это следует учитывать при обучении рассказом.

**Rəyçi: dos.N.Qasımzadə**